**“İPƏK YOLU SIĞORTA” ASC-nin**

**Direktorlar Şurasının 25.09.2025-ci il tarixli**

**Qərarı ilə təsdiq edilmişdir**

**_______________ Teymur Məmmədov**

**Direktorlar Şurasının sədri**

**“25” __sentyabr__ 2025-ci il**

**M.Y.**

**“İPƏK YOLU SIĞORTA” ASC-nin**

# MƏXFİLİK BƏYANNAMƏSİ

**BAKI – 2025**

## 1. ÜMUMİ MÜDDƏALAR.

1.1. Bundan sonra "Cəmiyyət" adlandırılacaq, "İPƏK YOLU SIĞORTA" ASC-də Məxfilik Bəyannaməsi, bundan sonra "Bəyannamə" adlandırılacaq, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq hazırlanmışdır və Cəmiyyətin fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi ilə bağlı siyasətini müəyyən edir.
1.2. Bəyannamədə əks olunan müddəalar Cəmiyyətin bütün struktur bölmələri və əməkdaşları üçün məcburidir. Bəyannamənin icrasına nəzarət Cəmiyyətin İdarə Heyəti tərəfindən həyata keçirilir.
1.3. Cəmiyyət, sığorta bazarının digər iştirakçıları (təkrarsığortaçılar, brokerlər və vasitəçilər) və istənilən podratçı şirkətlərlə bağlanmış müqavilələrdə fərdi məlumatlar haqqında qanunvericiliyin tələblərini nəzərə alaraq fərdi məlumatların qorunmasını təmin edir.

## 2. ANLAYIŞLAR.

2.1. Bu Bəyannamədə istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:
2.1.1. Fərdi məlumatlar — şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat;
2.1.2. Fərdi məlumatların subyekti (bundan sonra — "Subyekt") — barəsində fərdi məlumatlar toplanılan, işlənilən və mühafizə edilən, kimliyi müəyyənləşdirilmiş və ya müəyyənləşdirilən fiziki şəxs;
2.1.3. Fərdi məlumatların toplanılması — Subyekt barəsində fərdi məlumatların sənədləşdirilmiş qaydada qanuna uyğun olaraq əldə edilməsi;
2.1.4. Fərdi məlumatların işlənilməsi — fərdi məlumatlar üzərində aparılan əməliyyatlar (fərdi məlumatların yazılması, sistemləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanması, ötürülməsi, məhv edilməsi);
2.1.5. Fərdi məlumatların mülkiyyətçisi (bundan sonra — "Mülkiyyətçi") — qanunvericiliklə müəyyən edilmiş qaydada fərdi məlumatların informasiya sistemi və ya ehtiyatı üzərində tam sahiblik, istifadə, sərəncamverme hüququnu həyata keçirən, fərdi məlumatların işlənilməsi məqsədini müəyyən edən dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs;
2.1.6. Fərdi məlumatların istifadəçisi (bundan sonra — "İstifadəçi") — yalnız özü üçün zəruri informasiyanın əldə olunması məqsədi ilə səlahiyyətləri daxilində mülkiyyətçi tərəfindən müəyyən edilmiş qaydada və həcmdə fərdi məlumatlardan istifadə hüququ verilmiş dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs;
2.1.7. Fərdi məlumatların operatoru (bundan sonra — "Operator") — fərdi məlumatların toplanılmasını, işlənilməsini və mühafizəsini həyata keçirən fərdi məlumatların mülkiyyətçisi və ya onun bu funksiyaları müəyyən həcmdə və şərtlərlə həvalə etdiyi dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs;
2.1.8. Fərdi məlumatların yayılması — fərdi məlumatların media, habelə informasiya sistemləri ilə açıqlanması və ya fərdi məlumatlarla şəxslərin hər hansı digər üsulla tanış olmasına imkan yaradılması;

## 3. CƏMİYYƏT BARƏDƏ MƏLUMAT.

3.1. Cəmiyyətin tam adı - "İPƏK YOLU SIĞORTA" Açıq Səhmdar Cəmiyyəti.
3.2. Hüquqi ünvan – Azərbaycan Respublikası, Bakı şəhəri, Xəqani küçəsi 1.
3.3. Faktiki ünvan – Azərbaycan Respublikası, Bakı şəhəri, Heydəar Əliyev Beynəlxalq Aeroportu, AZ1044, "VİP Xidmətlər Qrupu" MMC-nin inzibati binası, 4-cü mərtəbə.
3.4. Əlaqə məlumatları – (+994 12) 598 3850; (+994 50) 246 1015.
3.5. İnternet səhifəsi – www.iys.az.

## 4. FƏRDİ MƏLUMATLAR SAHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ.

4.1. Fərdi məlumatlar sahəsində qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunundan, habelə digər normativ hüquqi aktlardan ibarətdir.
4.2. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununun müddəaları fiziki şəxslər tərəfindən fərdi məlumatların müstəsna olaraq şəxsi və ailə ehtiyacları üçün toplanılmasına və işlənilməsinə şamil edilmir.

## 5. FƏRDİ MƏLUMATLARIN TOPLANILMASININ, İŞLƏNİLMƏSİNİN VƏ MÜHAFİZƏSİNİN ƏSAS PRİNSİPLƏRİ.

5.1. Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması, onların informasiya sistemlərinin yaradılması Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş əsas insan və vətəndaş hüquq və azadlıqlarına riayət edilməklə, qanunçuluq, konfidensiallıq, könüllülüyün məcburiliklə uzlaşdırılması prinsiplərinə uyğun həyata keçirilir.
5.2. Fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi prosesində insanın həyat və sağlamlığı üçün təhlükə yaradılmasına, onun şərəf və ləyaqətinin alçaldılmasına yol verilmir.

## 6. SIĞORTA SİRRİ.

6.1. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı məlumatlar sığorta sirri hesab edilir:
6.1.1. sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin adı, ünvanı və digər şəxsi məlumatları;
6.1.2. hər hansı sığorta müqaviləsinin sığorta məbləği və ya qaytarılan məbləğ;
6.1.3. hər hansı sığorta müqaviləsi üzrə ödənilmiş, yaxud ödənilməmiş sığorta haqqı;
6.1.4. hüquqi şəxs olan sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin kommersiya və ya biznes sirri;
6.1.5. sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin şəxsi və ailə həyatı ilə bağlı, o cümlədən səhhətinə və əmlakına aid məlumatlar.

6.2. Sığorta bazarının peşəkar iştirakçıları peşəkar fəaliyyətləri nəticəsində əldə etdikləri sığorta sirri hesab edilən məlumatları qorumalı, həmin məlumatları aşağıdakı hallardan başqa digər şəxslərə açıqlamamalıdırlar:

6.2.1. sığorta sirrinin aid olduğu şəxsin yazılı razılığı əsasında;

6.2.2. təkrarsığorta və ya şərikli sığorta müqaviləsi bağlamaq məqsədilə təkrarsığorta və ya şərikli sığorta müqaviləsinin digər tərəfinə, habelə təkrarsığorta müqaviləsinin bağlanmasında vasitəçilik edən sığorta brokerinə;

6.2.3. səlahiyyətli orqanın qərarı əsasında ibtidai istintaq orqanının icraatında olan cinayət işləri üzrə həmin orqana;

6.2.4. məhkəmənin qərarı əsasında onun icraatında olan işlər üzrə həmin məhkəməyə;

6.2.5. sığorta sektorunda nəzarət funksiyalarının yerinə yetirilməsi ilə bağlı Mərkəzi Banka;

6.2.6. sığorta risklərinin qiymətləndirilməsi, sığorta hadisəsinin araşdırılması və (və ya) zərərlərin tənzimlənməsi üçün lazım olan istənilən məsələlər üzrə bu Qanunun 10.10-cu maddəsinin tələbi nəzərə alınmaqla sığorta əməliyyatlarına cəlb edilmiş sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslərə və müstəqil ekspertlərə;

6.2.7. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sığorta növləri üzrə İcbari Sığorta Bürosuna;

6.2.8. fiziki şəxs sığortalı, sığorta olunan və ya faydalanan şəxs öldükdə aşağıdakı şəxslərə:

6.2.8.1. notariat qaydasında təsdiq edilmiş ərizələri əsasında vərəsələrə;

6.2.8.2. məhkəmənin qərarı əsasında icraatında ölmüş müvafiq şəxslə bağlı vərəsəlik işləri olan məhkəməyə;

6.2.8.3. şəxsin ölməsi haqqında şəhadətnamənin surəti əlavə olunmaqla müvafiq notariusun yazılı sorğusu əsasında ölmüş şəxslə bağlı vərəsəlik məsələlərinə baxan notariusa;

6.2.8.4. xarici ölkələrin konsulluq idarələrinin yazılı sorğusu əsasında icraatlarında ölmüş şəxslə bağlı vərəsəlik işləri olan həmin idarələrə.

6.2.9. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda maliyyə monitorinqi orqanına;

6.2.10. Vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, bu dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hədlərdə və qaydada müvafiq icra hakimiyyəti orqanı vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına.

6.3. Sığorta sirrini qanuni yolla əldə edən bütün şəxslər onu yaymağa və digər şəxslərə açıqlamağa görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

## 7. FƏRDİ MƏLUMATLARIN MÜHAFİZƏSİ.

7.1. Cəmiyyət fərdi məlumatların qorunması üçün müvafiq texniki və təşkilati tədbirlər görür. Bunlara aşağıdakılar daxildir:
7.1.1. Fərdi məlumatların informasiya sistemlərində təhlükəsizlik səviyyəsinin təmin edilməsi;
7.1.2. Məlumat mübadiləsi zamanı şifrələmə və digər mühafizə metodlarının tətbiqi;
7.1.3. Üçüncü şəxslərlə məlumat mübadiləsi yalnız Subyektin yazılı razılığı və qanunvericiliyə uyğun həyata keçirilir;
7.1.4. Fərdi məlumatların saxlanma müddəti başa çatdıqda və ya məlumatın saxlanma zərurəti aradan qalxdıqda məlumatlar qanunvericiliyə uyğun məhv edilir.
7.2. Fərdi məlumatların mühafizəsi Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 28 mart 2024-cü il tarixli 14/2 saylı Qərarı ilə təsdiqlənmiş "Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Tələblər"-i nəzərə alınmaqla həyata keçirilir.

## 8. FƏRDİ MƏLUMATLARIN İŞLƏNİLMƏSİ.

8.1. Cəmiyyət fərdi məlumatları yalnız qanuni və məqsədli şəkildə, müqavilə öhdəliklərinə və qanunvericiliyə uyğun olaraq istifadə edə bilər. Fərdi məlumatların işlənilməsi zamanı aşağıdakı əməliyyatlar icra olunur:
8.1.1. Məlumatların qeydə alınması, informasiya sisteminə daxil edilməsi, sistemləşdirilməsi, yenilənməsi və dəyişdirilməsi;
8.1.2. Hesabatların hazırlanması üçün məlumatların çıxarılması;
8.1.3. Məlumatların arxivləşdirilməsi;
8.1.4. Məlumatların qanunvericiliyə uyğun məhv edilməsi.

## 9. SUBYEKTİN ÖZÜ BARƏSİNDƏ FƏRDİ MƏLUMATLARIN TOPLANILMASINA VƏ İŞLƏNİLMƏSİNƏ RAZILIĞI.

9.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada fərdi məlumatların məcburi şəkildə toplanılması və işlənilməsi halları istisna olmaqla, hər hansı şəxs barəsində fərdi məlumatların toplanılmasına və işlənilməsinə yalnız Subyekt tərəfindən verilmiş yazılı, o cümlədən gücləndirilmiş elektron imzalı elektron sənəd formasında razılıq və ya özünün yazılı təqdim etdiyi məlumatlar əsasında yol verilir.
9.2. Subyektin fərdi məlumatların işlənilməsi üçün yazılı (o cümlədən Elektron Hökumət İnformasiya Sistemi üzərindən) razılığa aşağıdakılar daxil edilməlidir:
9.2.1. Subyektin kimliyini müəyyənləşdirməyə imkan verən məlumatlar;
9.2.2. Subyektdən razılıq alan mülkiyyətçinin və ya operatorun kimliyini müəyyənləşdirməyə imkan verən məlumatlar;
9.2.3. Fərdi məlumatların toplanılması və işlənilməsi məqsədi;
9.2.4. Subyekt tərəfindən işlənilməsinə razılıq verilmiş fərdi məlumatların və onların işlənilmə

əməliyyatlarının siyahıları;
9.2.5. Subyektin razılığının qüvvədə olma dövrü və onun geri götürülməsi şərtləri;
9.2.6. Fərdi məlumatların müvafiq informasiya sistemində müəyyən olunmuş saxlanma müddəti başa çatdıqdan və ya subyektin ölümündən sonra onun barəsində toplanılmış fərdi məlumatların qanunvericiliklə müəyyən olunmuş qaydada məhv edilməsi və ya arxivləşdirilməsi şərtləri.

**10. SUBYEKTİN HÜQUQLARI.**

10.1. Subyekt aşağıdakı hüquqlara malikdir:
10.1.1. İnformasiya sistemində özü barəsində fərdi məlumatların mövcudluğu, onların mülkiyyətçisi və ya operatoru haqqında məlumat almaq;
10.1.2. İnformasiya sistemində özü barəsində fərdi məlumatların toplanılmasının, işlənilməsinin və üçüncü şəxslərə verilməsinin hüquqi əsaslandırılmasını tələb etmək, bu məlumatların toplanılmasının, işlənilməsinin və üçüncü şəxslərə verilməsinin subyekt üçün hansı hüquqi nəticələrə səbəb olacağı barədə məlumat almaq;
10.1.3. İnformasiya sistemində özü barəsində toplanılmış fərdi məlumatların məzmunu ilə tanış olmaq;
10.1.4. İnformasiya sistemində özü barəsində fərdi məlumatların toplanılması və işlənilməsi məqsədini, işlənilmə müddətini, üsullarını, onun fərdi məlumatları ilə tanış olmaq icazəsi olan şəxslərin, o cümlədən məlumat mübadiləsi aparılması nəzərdə tutulan informasiya sistemlərinin dairəsini bilmək;
10.1.5. İnformasiya sistemində özü barəsində toplanılmış və işlənilən fərdi məlumatların dəqiqləşdirilməsini və qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, məhv edilməsini tələb etmək, habelə həmin məlumatların müəyyən olunmuş qaydada arxivə verilməsi barədə müraciət etmək;
10.1.6. Özü barəsində fərdi məlumatların toplanılmasına və işlənilməsinə qadağan qoyulmasını tələb etmək;
10.1.7. İnformasiya sistemində özü barəsində toplanılmış və işlənilən fərdi məlumatların əldə edilməsi mənbələri barədə məlumat almaq, həmin məlumatların qanuniliyinin sübuta yetirilməsini tələb etmək;
10.1.8. İnformasiya sistemində özü barəsində toplanılmış və işlənilən fərdi məlumatların mühafizəsini tələb etmək;
10.1.9. Özü barəsində toplanılan və işlənilən fərdi məlumatların olduğu informasiya sistemlərinin uyğunluq sertifikatının mövcudluğu və dövlət ekspertizasından keçirilməsi haqqında məlumat almaq;
10.1.10. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının başqa normativ hüquqi aktları ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.
10.2. Fərdi məlumatların toplanılmasının və işlənilməsinin qanunvericiliklə müəyyən olunmuş qaydada məcburi xarakter daşıdığı hallar istisna olmaqla, subyekt onun barəsində olan məlumatların toplanılmasına və işlənilməsinə etiraz etmək hüququna malikdir. Subyektin etirazı mülkiyyətçiyə və ya operatora yazılı surətdə təqdim olunmalıdır. Subyektin etirazının əsaslandırılması tələb olunmur. Mülkiyyətçi və ya operator həmin etirazı aldıqda göstərilən fərdi məlumatların toplanılmasını və

işlənilməsini dərhal dayandırmalıdır.

10.3. İnformasiya texnologiyaları vasitəsilə fərdi məlumatların toplanılması və işlənilməsi nəticəsində qəbul olunan qərar subyektin mənafeyini pozduğu halda, qanunvericiliklə müəyyən olunmuş qaydada məcburi xarakter daşıdığı hallar istisna olmaqla, subyektin bu məlumatların göstərilən üsulla toplanılmasına və işlənilməsinə etiraz etmək hüququ vardır. Mülkiyyətçi və ya operator fərdi məlumatların informasiya texnologiyaları vasitəsilə işlənilməsinə qarşı etiraz aldıqda, subyektdən onun barəsində məlumatların digər üsulla işlənilməsinə razılıq almalı və ya fərdi məlumatların işlənilməsini təxirə salmadan dayandırmalıdır.

10.4. Subyekt onun barəsində fərdi məlumatların qanunsuz toplanılması və işlənilməsi, mühafizəsinin təmin edilməməsi hallarında müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə şikayət etmək, habelə ona vurulmuş mənəvi və maddi ziyanın ödənilməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdir.

10.5. Subyekt "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununun 7.1-7.3-cü maddələrində göstərilən hüquqlarını mülkiyyətçiyə və ya operatora kağız formatında yazılı ərizə və şəxsiyyətini təsdiq edən sənədi təqdim etməklə və ya gücləndirilmiş elektron imzalı elektron sorğu verməklə həyata keçirir.

## 11. YEKUN MÜDDƏALAR.

11.1. Bu Bəyannamə Cəmiyyətin Direktorlar Şurasının qərarı ilə təsdiq edilir və 01.10.2025-ci il tarixdən etibarən qüvvəyə minir.

11.2. Bu Bəyannaməyə ediləcək əlavələr və dəyişikliklər Cəmiyyətin Direktorlar Şurasının qərarı ilə təsdiq edildikdən sonra qüvvəyə minir.

11.3. Bu Bəyannamədə nəzərdə tutulmayan məsələlər Azərbaycan Respublikasının qüvvədə olan müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

İdarə Heyətinin sədri N.C. İmanov
7 (yeddi) vərəq.

AZƏRBAYCAN RESPUBLİKASI
"İPƏK YOLU SIĞORTA" ASC
İPƏK YOLU SIĞORTA
"IPEK YOLU SIGORTA" OJSC
AZERBAIJAN REPUBLIC